Ədəbiyyat QƏZETİ

2 oktyabr / 2021

# Əsgər ZEYNALOV - 70



Hörmətli Əsgər müəllim!

Sizi - tanınmış ədəbiyyatşünas alimi 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1977-ci ildə "Azərbaycan gəncləri" qəzetində nəşr olunan "Volterin izi ilə" adlı ilk məqalənizlə yaradıcılığa başlamısınız. 1989-cu ildən ADU-da çalışırsınız. Praktik Fransız dili kafedrasının müdiri, TEC-in sədri, Qafqazşünaslıq kafedrasının müdiri kimi fəaliyyət göstərmisiniz. Hazırda Fransız dili və Mədəniyyəti Mərkəzinin müdirisiniz. 1991-ci ildə "Azərbaycan bayatıları Qafqaz regionunda" mövzusunda namizədlik, 2003-cü ildə isə "Şərq Volter yaradıcılığında" mövzusunda doktorluq dissertasiyaları müdafiə etmisiniz. Respublikamızı İrəvan (2001), Fransa (2007, 2014), Almaniya (2007), Türkiyədə (2009) keçirilən konfrans, qurultay və tədbirlərdə təmsil etmisiniz.

Ədəbiyyatşünaslığımızda fransız ədəbiyyatından ilk doktorluq dissertasiyası, Volter və Hüqo haqqında ilk monoqrafiyalar sizin adınızla bağlıdır. Azərbaycan, fransız və erməni dillərində tədqiqat apara bilməniz yaradıcılığınız üçün geniş imkanlar yaratmışdır.

Siz respublikamızın beynəlxalq miqyasda böyük nüfuz qazanmış alimlərindən birisiniz. "İrəvan ziyalıları" kitabınız Sankt-Peterburqda (2011), Moskvada (2013) rus dilində, ABŞ-da (2016) ingilis dilində, "Hüqo - fransız ədəbiyyatının milyarderi" monoqrafiyanız Fransada (2015) fransız dilində, Almaniyada (2016) ingilis dilində, "Hüqonun Şərq baxışı" İngiltərədə (2016) ingilis dilində, "Volter və Hüqonun Şərq baxışı" Kanadada (2016) ingilis dilində, "İrəvan xanlığı... gerçəkliyin aydınlığı" ABŞ-da (2016) Azərbaycan dilində, "Şərq Volter yaradıcılığında" Hindistanda (2017) ingilis dilində, "Volter və Hüqonun Şərq dünyası" İsveçdə (2018) ingilis dilində çap olunmuş, 10-dan artıq məqaləniz Rusiya, İran, Türkiyə və Serbiyada işıq üzü görmüşdür.

Dünya şöhrətli rus və fransız alimləri Boris Starkov, Rudolf İvanov, J.L.Bakker-Qrammon, Arno Laster əsərlərinizə ön söz yazmış və yaradıcılığınızı yüksək qiymətləndirmişlər. Azərbaycan oxucuları orijinaldan etdiyiniz tərcümələr vasitəsilə Viktor Hüqonun, Alfred Müssenin, Teofil Qotyenin, Lui Araqonun və digər şairlərin şeirləri ilə tanış olmuşlar. Bosniya-Herseqovinalı alim akademik Enes Kariç "Hüqo Məhəmməd peyğəmbər haqqında" əsərində bir neçə dəfə sizə istinad etmişdir.

Siz Nyu-York Elmlər Akademiyasının üzvü, Özbəkistan Turan Akademiyasının akademiki, Parisdə fəaliyyət göstərən Viktor Hüqonun Dostları Cəmiyyətinin üzvi, Türk Dünyası Beynəlxalq Araşdırmalar Akademiyasının akademiki, Almaniyanın Hannover şəhərində fəaliyyət göstərən Avropa Təbiət Elmləri Akademiyasının akademikisiniz. Türk Dünyası Beynəlxalq Araşdırmalar Akademiyasının qızıl medalına layiq görülmüsünüz.

"Fransız ədəbiyyatında Şərq", "İrəvan ziyalıları", "Azərbaycan bayatıları Qafqaz regionunda", "Şərq Volter yaradıcılığında", "Viktor Hüqo", "Altaydan- Altaya", "Orda bir yurd var, uzaqda", "Hara gedir bu qatar?", "İrəvan məktəbləri", "Fransız dili" (ali məktəblər üçün dərslik) kitablarınız Sizin çoxşaxəli yaradıcılığınızı təsdiq edir.

Hörmətli Əsgər müəllim!

Sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, cansağlığı və yaradıcılıq uğurları arzu edirik.

**Azərbaycan Yazıçılar Birliyi**